BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Təbiət elmləri seriyası 2013*

UOT 553.98 (262.81)

# ABŞERON YATAQLARINDA OLİQOSEN-MİOSEN-PONT ÇÖKÜNTÜLƏRİNİN NEFTLİ-QAZLILIĞININ ÖYRƏNİLMƏSİ HAQQINDA

**Ç.A.HACIYEV*, F.S.İBRAHİMOV****

***AMEA, Geologiya İnstitutu****

***ARDNŞ, "Azneft" İB, "Abşeronneft" NGÇİ*****

***Chelkes gadji@yahoo***

*Məqalə Abşeron neft-qaz regionunun (NQR) işlənmədən yatağlarında Məhsuldar qatdan (MQ) altda yatan Oliqosen-Miosen-Pont çöküntülərdə karbohidrogenlərlə doyumlu kollektor təbəqələrin aşkara çıxarılması ilə əlaqədar axtarış-kəşfiyyat işləri haqqında mövcüd olan geoloji-geofiziki tədqiqat məlumatlarının araşdırılmasına həsr edilmişdir. Quru və dəniz yataqlarında bu çöküntüləri qismən açan quyularda aparılan geofiziki tədqiqat məlumatlarına mənfi təsir amilləri araşdırılmışdır. Qazıma sənədlərinin təhlili əsasında yaranmış şərait və quyularda aparılan tədqiqatların keyfiyyət səviyyəsi dəyərləndirilmişdir. Kəsilişdəki çöküntülərin neftli-qazlılığının öyrənilməsini davam etdirməyin vacıbliyi əsaslandırılmış, məsələnin həlli üçün Neft Daşları 1M və Pirallahi yatağının 1200, 1201 saylı quyularında aparılmalı tədqiqat işlərinin proqramı təklif olunmuşdur.*

**Açar sözlər:** yataq, kollektor, qazıma, udulma, məhlul, kəsiliş, çöküntü, karbohidrogen, tədqiqat

Azərbaycanın neftli-qazlı vilayətlərində sənaye əhəmiyyətli neftqazla doyumluluq, əsasən, geoloji kəsilişin Məhsuldar qata (MQ) mənsub olan çöküntülərində aşkar edilərək, işlənmə prosesi həyata keçirilir.

Bir çox tədqiqatçıların apardıqları araşdırmalar, bu çöküntülərə neft-qazın aşağıda yatan üçüncü dövr çöküntülərindən tektonik proseslər nəticəsində yaranan çatlar vasitəsilə miqrasiyası əsasında münbit kollektorluluq mühitində toplanaraq yataqların yaranması haqqında söylənilən fikirlər, demək olar ki, üstünlük təşkil edir. Eyni zamanda bu fikirləri təkzib edən mülahizələr də mövcuddur. Lakin karbohidrogenlərin əmələgəlməsi üçün orqo-termo-barik şəraitin olmasının vacibliyi baxımından birinci fikir daha çox məntiqi əsaslanmış hesab edilir.

Uzun illər geoloji-geofiziki üsullarla aparılmış axtarış, struktur və dərinlik qazması ilə görülmüş axtarış işləri də, MQ-nin sənaye əhəmiyyətli

neftli-qazlılığını təsdiq edərək, respublikanın bütün regionlarında bu çöküntülərin öyrənilməsi və işlənməyə cəlb edilməsi əsas diqqət mərkəzində olmuşdur. Qeyd etmək lazımdır ki, bu müddət ərzində MQ-dən altda yatan geoloji kəsiliş diqqətdən kənarda qalmamış, kəşfiyyat quyularının qazılmasıyla bu çöküntülərin də neftli-qazlılığının öyrənilməsi həyata keçirilmişdir. Əksər quyularda qazma zamanı əsasən, yumşaq gilliliyə mənsub olan Pont çöküntülərində baş verən mürəkkəbləşmələr üzündən MQ-dən altda yatan geoloji kəsilişin həqiqi doyumluluğu haqqında obyektiv nəticə əldə etmək mümkün olmamışdır.

Bütün bunlara baxmayaraq, bu istiqamətdə qazma texnologiyası təkmilləşdikcə ayrı-ayrı illərdə Oliqosen-Miosen-Pont çöküntülərinin neftli-qazlılığının öyrənilməsinə cəhd göstərilmiş, bir sıra strukturlarda axtarış işləri aparılmış və Quba-Xəzəryanı neft-qaz regionunda (NQR) Siyəzən, Saadan, Zarat və Əmirxanlı yataqlarında sarmat, çokrakda, Abşeron NQR-də Binəqədi, Masazır və Sulutəpə yataqlarında diatomda, Umbakı yatağında maykopda, Pirallahı yatağında diatom, sarmat, çokrakda və Aşağı Kür çökəkliyində Muradxanlı yatağında eosendə neftli-qazlılıq aşkar edilməklə həmin çöküntülərin öyrənilməsinə diqqəti artırmağı əsaslandırmışdır.

Bu baxımdan MQ-dən altda yatan hal-hazırda işlənmədə olan yatağlarda Oliqosen–Miosen-Pont çöküntülərinin kəsilişində karbohidrogenlə doyumluluğun tədqiqi məqsədi ilə Neft Daşlarında 1M və Pirallahıda 1200 saylı qismən bu çöküntələri açan quyularda qazma dövründə aparılan geofiziki tədqiqat məlumatlarının və qazma sənədlərinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, bu tədqiqatların kəsilişdəki real vəziyyətin obyektiv dəyərləndirməməsi bir necə səbəblə əlaqədardır.

Belə ki:

- Məhsuldar qatdan fərqli olaraq, Oliqosen-Miosen-Pontun kəsilişində qazma avadanlığının və texnologiyanın həmin kəsilişin tələbləri səviyyəsində olmaması;
- bu çöküntülərin dəqiq hidrodinamik parametrləri haqqında məlumatsızlıq üzündən hər dəfə mürəkkəbləşmələrlə qarşılaşandan sonra qazma alətini, texnologiyanı, məhlulun göstəricilərini (xüsusi çəki, özlülük və suvermə) dəyişməklə, kəsilişdəki süxurların udulmaya məruz qalması;
- qazıma zamanı nasosun yaratdığı hidrodinamik və hidrostatik təzyiqlərin təsirindən udulmaya məruz qalan kollektor təbəqələrdə quyu lüləsinin ətrafındakı məsaməli və keçiriciyliyə malik süxurlarda karbohidrogenlər (xüsusilə qaz və qaz-kondensat tərkibli) sıxışdırılaraq quyu lüləsindən uzaqlaşdırıldıqdan sonra həmin məsaməli mühitdəki flüid su və yüksək gilliliyə malik məhlul ilə əvəz olunması səbəbindən, geofiziki məlumatın kəsilişdəki ilkin doyumluğu əks etməməsi halları baş vermişdir.

Yuxarıda qeyd olunan amilər, bu çöküntüləri qismən açan, dənizdə Neft Daşları yatağının I tektonik blokunda layihədə Mezozoy çöküntülərinə qazılması nəzərdə tutulan 1M və həmin yataqda Oliqosen-Miosen-Pontu qismən

açan 380, 32, 481, 1591, 1953, 7, 5, 298, 364, 1501, Pirallahı yatağında 1200, 324, 373, 316, 272, 426, 427, 428, 432, 435, 479, 194, 434, 470 , Səngəçaldənizdə 5,10,20, 27 saylı, eləcə də quruda Balaxanı-Sabunçu-Ramana yatağındakı quyularda qazma zamanı geofiziki üsullarla ölçülmüş tədqiqat məlumatlarında aydın izlənilir. Bu quyular üçün ilk növbədə ən xarakterik məqam, qazma zamanı MQ-dən Ponta keçdikdə: qazma alətinin tutulması, işçi təzyiqinin artması, qazmanın məhlulun xüsusi çəkisini artırdıqdan sonra davam etdirilməsi, kəsilişdəki müxtəlif intervalardan qaz axınının təzahürü, bu səbəbdən məhlulun xüsusi çəkisinin aşağı düşməsi, yenidən məhlulun xüsusi çəkisinin artırılması və qazma parametrlərinin dəyişdirilməsi, mütəmadi quyu lüləsində fasilələrlə yuma prosesinin aparılması, hidrodinamik təzyiqi artırmaqla məhlulun intensiv udulması kimi mürəkkəbləşmələrin baş verməsi və ən nəhayət bütün bunlardan sonra, quyuda geofiziki üsullarla aparılan tədqiqat məlumatlarına təsirlərdən yaranan "məlumatsızlıq!!!". Bir də diqqət yetirək! Quyuda Pontda və ondan aşağıdakı çöküntülərdə qazma zamanı qaz axımı baş verir; məhlulun xüsusi çəkisini artırmaqla qazma davam etdirilir; hidrodinamiki təzyiq artırılır; məhlulun intensiv udulması baş verir; avadanlıq qaldırılaraq quyu tədqiqata hazırlanır; tədqiqat aparılır və elektrik karotajı üsulu ilə geofiziki tədqiqat zamanı FXM (fərz olunan xüsusi müqavimət) əyrisi qazma məhlulunun xüsusi müqavimətini, QP (quyu potensialı) isə udulma zonasında gilliliyin artmasına baxmayaraq keçiriciliyə malik təbəqələr haqqında məlumat qeyd olunur.

Burada hansı məlumatsızlıqdan söhbət gedə bilər?

Quyuda karbohidrogenlə doyumlu ayrı-ayrı intervalada açıq müşahidə olunan şərait yox edilərək müsbət məlumat axtarılır. Hansı məntiqlə?

MQ-də neftli-qazlılığın miqrasiya prosesi əsasında yaranmasını nəzərə alaraq, karbohidrogenlərin üçüncü dövrə mənsub olan çöküntülərdə əmələgəlməsi və sonra üstdə yatan çöküntülərə miqrasiya prosesi zamanı bu axının önündə qravitasiya qanunauyğunluğuna əsasən qaz, qazkondensat və sonra neft-qazın hərəkəti baş vermişdir.

Belə olan halda, karbohidrogenlərin əmələgəldiyi ana süxurlardan üstdə yatan Oliqosen-Miosen çökültülərində qaz, qazkondensat, bu çöküntülərindən yuxarıdakı, MQ-də neft-qaz toplanmışdır. Bu proses başa çataraq miqrasiya mənbəyindəki hidrodinamik təzyiq ilə MQ arasında flüidin yaratdığı hidrostatik təzyiqlərin miqrasiya kanalında balanslaşmasından sonra, MQ-dən işlənmə başlanana qədər keçən uzun tarixi müddət ərzində miqrasiya kanallarında geodinamik proseslərin təsrindən irili-xırdalı mexaniki tərkibli litoloji süxur zərrəciklərinin çökməsi ilə, kanalda hidrostatik təzyiqin dağ təzyiqi ilə əvəz olunması ehtimalı istisna olunmur.

Digər tərəfdən, işlənməyə qədər olan müddətdə MQ-də toplanan karbohidrogenlərdə də qravitasiya qanunauyğunluğu ilə kəsilişdaxili ikinci miqrasiya prosesi əsasında su-suneft-neftqaz təbəqələşməsinin baş verməsi bütün işlənmədə olan yataqlarda müşahidə olunur.

İkinci diqqəti cəlb edən məsələ, MQ-yə mənsub quruda və dənizdə aşkar edilən strukturlardakı həmin çöküntülərdə qazma zamanı dərinlik artdıqca qazma məhlulunun məsaməli və keçiriciliyə malik təbəqələrdə udulmasının, geofiziki üsullarla tədqiqat nəticələrinə təsirinin mövcud olması ilə yanaşı, artıq bu geoloji kəsilişin hidrodinamik parametrlərinin məlum olması ilə qazma prosesinin tənzimlənməsi həyata keçirilirsə də, kəsilişdə qazma ilə açılmış çöküntülərdə qoruyucu kəmər buraxılana qədər kollektor təbəqələrdə ilkin geofiziki məlumatların ciddi dəyişməyə məruz qalması ilə, araşdırmalar zamanı bir çoxunun aşağı neft-qazla doyumluluğa malik olması, bəzən də, yüksək sulu-gilliliyə mənsub olmaları kimi dəyərləndirilərək külli miqdarda neft-qaz ehtiyatının diqqətdən yayınması ilə nəticələnir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, MQ-dən altda yatan çöküntlərdə bu məsələyə diqqət yetirdikdə görürük ki, həmin kəsilişin hidrodinamiki parametrləri haqqında məlumatın olmaması, qazma təcrübəsinin, avadanlıq və texnoloji təminatın lazımi tələblərə cavab verməməsi üzündən, qazma prosesində Oliqosen-Mioseni qismən açan Neft Daşları 1M və Pirallah 1200 saylı quyularda mürəkkəbləşmələrin başvermə şəraitinin eyniliyi, həmin çöküntülərdə neftli-qazlı və qazkondensatlılığın öyrənilməsinə ciddi təsir göstərmiş, geofiziki üsullarla ölçü işləri lazımi səviyyədə aparılmamış və bəzi tədqiqatların yerinə yetirilmədiyindən yanlış dəyərləndirmə ilə nəticələnmişdir. Hal-hazırda həmin quyularda geofiziki üsullarla tədqiqat işlərinin aparılması haqqında, AMEA Geologiya İnstitutu tərəfindən irəli sürülmüş təklifə “Azneft” İB-nin cavabına diqqət yetirdikdə görürük ki, verdikləri cavabda yazdıqlari kimi: “Neft Daşları 1M saylı quyuda 3500 m dərinliyə kimi kəsilişin stratiqrafik bölməsində bir sıra çətinlik və qeyri-müəyyənliklərə baxmayaraq, götürülmüş çoxsaylı kern və şlam nümunələrinə istinad etməklə mədən geofizikası tədqiqatrarının nəticələrinə əsasən bu kəsilişdə neftli-qazlığın müşahidə olunmadığı, litoloji cəhətdən gillərdən ibarət olduğu” - qeyd edilir.

Hansı kern nümunəsinə istinadən bu fikir şərh edilir? O kern nümunəsinə ki, bütün nümunə götürülən intervallar yalnız gil təbəqələrinə mənsub olmuş və kəsilişdə olan az gilli, qumlu, qumdaşılı, alevritli, QP və QK- əyrilərinə görə keçiricilik müşahidə olan heç bir təbəqədən süxur nümunəsi götürülməmişdir.

Qazma zamanı yalnız 130-962 m intervalda QK-NQK, 130-2200 m-də QK ölçülmüş, kəsilişdə yüksək hidrodinamik təzyiq üzündən məhlulun intensiv udulmasına məruz qalan qaz, qaz-kondensatla doyumlu Oliqosen-Mioseninin diatom, sarmat, çokrak, maykop, hətta Pont çöküntülərində keçirici və məsaməli təbəqələrindəki karbohidrogenlər 90-100 MPa işçi təzyiqi ilə quyu lüləsindən sıxışdırılaraq o qədər uzaqlaşdırılmışdır kı, elektrik karotajı üsulu ilə tədqiqat zamanı, hətta 4 və 8 m zondlarla və yan karotaji ilə kəsilişdə yalnız qazma məhlulunun xüsusi müqaviməti qeyd olunmuşdur (şəkil 1). Beləliklə də aşağıdan yuxarı miqrasiya prosesi ilə qarşılaşan 2500 m-lik geoloji kəsilişdə heç bir neft-qaz əlaməti muşahidə olunmur.

Halbuki, Neft Daşları və Pirallahı yataqlarında Oliqosen-Miosen-Pont çöküntülərini qismən açan 1m və 1200 saylı hər iki quyunun qazma sənədlərində mütamadi olaraq qaz axınının müşahidə olunması haqqında qeydlər və eləcə də 1200 saylı quyuda aparılan qaz karotajı məlumatları bu fikiri bir daha təsdiq edir (şəkil 2).

Məsələnin həll edilməsinin vacıbliyini sübut edən yetərincə inkaredilməz geoloji-geofiziki əsaslar vardir.

• Bilavasitə Abşeron NQR-ki işlənmədə olan neft strukturlarında MQ-a neft-qazın üçüncü dövr çöküntülərində əmələ gələrək onun kəsilişindəki kollektor təbəqələrə miqrasiyasının yolu, ondan altda yatan Oliqosen-Miosen-Pont çöküntülərindən keçir və miqrasiyanın önündə qaz-qazkondensatın hərəkəti zamanı 2500 m qalınlığa malik, dünyanın və eləcə də Azərbaycanın bir neçə yatağında kollektorluğu və məhsuldarlığı öz təstiqini tapmış bu çöküntülərdə neftli-qazlılığın müşahidə olunmaması fikiri, geoloji-geofiziki məlumatlardan göründüyü kimi, tam yanlışdır.

• Məsələnin həlli məqsədi ilə, bu quyuların qazılmasında və kəsilişin tədqiqində yol verilmiş çatişmazlığı aradan qaldırmaq, MQ-dən altda yatan çöküntülərdə neftli-qazlılığın öyrənilməsi üçün, yüksək maliyə vəsaiti sərf etməklə yeni quyu qazımaqdan, adı əsaslı təmir briqadası ilə Neft Daşları yatağında 1M və Pirallahı yatağında 1200,1201 saylı artıq kəmər buraxılmış quyularda qazıma zamanı istifadə olunan parametrlərə malik xüsusi çəkidə qazma məhlulu hazırlayaraq, polimer və ya sementdən istifadə etməklə kəmərdə açılmış süzqəç yerlərini bağlayaraq, kəmərin müxtəlif dərinliklərində qoyulmuş süni quyudibi sement korpülərini qazıyaraq həmin quyularda təklif olunan radiaktiv karotajın İNNK üsulu ilə tədqiqat aparmaqla lazımi məlumatın alınmasına, bu müddətdə neft itgisini nəzərə almaqla sərf olunan xərc, dəfələrlə az olacaq və bu məsələ tezliklə öz həllini tapa bilər.

• Bu quyularda hal–hazırda geofiziki tədqiqatın aparılması bir də ona görə vacibdir ki, artıq kəsilişdə qazıma zamanı udulmaya məruz qalan kollektor təbəqələrdə, keçən uzun müddət ərzində ilkin doyumluğun bərpası getmişdir və bununla da quyunun tədqiqat obyektindən neft–qazkondensatla doyumluluq haqqında obyektiv məlumatın alınacağına zəmin yaradir ki, buna şübhə etmək tam əsassızdır.

Bütün yuxarıda qeyd edilənləri yekunlaşdıraraq bu quyularda tədqiqat işlərinin aşağıdaki proqrama uyğun aparılması təklif olunur.




**Şək. 2.** Pirallahı yatağının şimal qırışığında 1200 saylı quyuda Oliqosen-Miosen-Pont çöküntülərinin kəsilişində elektrik Karojı üsulu ilə tədqiqat diaqramından nümunə.




**Şək. 1.** Neft Daşları yatağının 1 M saylı quyusunda Oliqosen-Miosen-Pont çöküntülərinin kəsilişində qazma zamanı geofiziki üsullarla tədqiqat məlumatlarının diaqramlarından nümunələr.

**Neft Daşlarının 1M və Pirallahı 1200, 1201 saylı quyularda Oliqosen-Miosen-Pont çöküntülərinin neftlilik-qazlılığının öyrənilməsi üçün geofiziki, hidrodinamiki üsullarla və lay-sınaq avadanlığı ilə aparılacaq elmi-tədqiqat və sınaq işlərinin proqramı**

Neft Daşları yatağının I tektonik blokunda qazılmış qoruyucu kəmər buraxılmış, dərinliyi 3500 m-ə olan, Məhsuldar qatdan altda yatan Oliqosen-Miosen-Pont çöküntülərini açan 1M və Pirallahı yatağında 1200, 1201 saylı quyularda, aşağıdakı plan üzrə mərhələlərlə tədqiqat və sınaq işləri yerinə yetirilməlidir:

I mərhələdə – Quyu tədqiqata hazırlanmalı;

II mərhələdə – Quyu kəsilişində geofiziki, hidrodinamiki üsullarla tədqiqat işləri aparılmalı;

III mərhələdə – Quyuda geofiziki və hidrodinamiki üsullarla aparılmış tədqiqat məlumatlarının emalından alınan nəticələrin əsasında İNNK üsulu ilə intensivliyi yüksək olan intervallarda lay-sınaq avadanlığından istifadə etməklə mənimsəmə işləri aparılmalıdır.

I mərhələdə quyunu tədqiqata hazırlamaq üçün işlər aşağıdakı ardıcıllıqla aparılmalıdır:

- Əsaslı təmir briqadası tərəfindən ekoloji tələbləri nəzərə almaqla quyularda təmirə hazırlıq işləri icra olunmalı;
- Süni quyudibi dərinliyin təyini və statik vəziyyətdə kəmərdaxili mayenin səviyyəsi, neft-su sərhədi, süzgəc yeri, təzyiq və temperatur təyin edilməli;
- Quyu ağzından, süni quyudibi səviyyəyə qədər olan intervaldakı Məhsuldar qatın kəsilişində İNNK+QK üsulundan ibarət komplekslə geofiziki tədqiqat aparılmalı;
- İstismar kəməri daxilində sement körpüsü qazıldıqdan və şablonla növbəti sement körpüsünün yeri müəyyənləşdirildikdən sonra, yuxarıda qeyd olunan geofiziki komplekslə tədqiqat aparılmalı, işlənmədə olan intervallardakı süzgəc yerləri sementlənməli və hermetiklik təmin olunmalı;
- Sement körpüsü qazıldıqdan sonra, quyudibi dərinlik təyin edilməli qazma dövründə quyuda mənimsəmə zamanı açılmış süzgəc yerləri açıqdırsa sementlənməli, kəmər daxili tam yuyulmalı, quyu lüləsində olan məhlul minerallığı 30° Be duzlu su ilə əvəz edilməli;
- 24 saatdan sonra kəmər daxilindəki mayenin statik səviyyəsi dəyişərsə mayenin udulma intervalında hermetiklik təmin olunmalıdır.

II mərhələdə quyuda geofiziki və hidrodinamiki üsullarla elmi-tədqiqat işləri aşağıdakı ardıcıllıqla aparılmalıdır:

- Akustik sement ölçmə cihazı ilə kəmər arxasında sement stəkanının hermetikliyi tədqiq olunmalı;

- Statik vəziyyətdə kəsiliş boyu termometriya, nəmlik ölçmə, barometriya, muftaların yerinin qeydi, radioaktiv karotajın İNNK+QK, QK+NQK üsullarından ibarət kompleks tədqiqat işləri aparılmalı və məlumatların emalı yerinə yetirilməlidir.
- III mərhələdə quyuda geofiziki və hidrodinamiki üsullarla aparılmış tədqiqat məlumatlarının emalı zamanı İNNK üsulu ilə intensivliyi yüksək olan intervallarda lay-sınaq avadanlığından istifadə etməklə mənimsəmə işləri aşağıdakı ardıcıllıqla yerinə yetirilməlidir:
- Yüksək intensivlik aşkar edilmiş intervalda perforasiya işlərini aparmaq üçün quyu ağzında təhlükəsizlik tədbirləri yerinə yetirilməli;
- Perforasiya aparmaq üçün quyu ağzında bufer kran qapayıcısının üstünə lubrikator qurğusu bağlanılmalı;
- Kəmər arxasında və quyu ağzı çıxış borusu ştuser gövdəsi manometrlə təchiz edilməli, mənimsəmə zamanı quyudan gələn məhlulun yığımı üçün çən yerləşdirilməli, hasilatın həcmini və qaz faktorunu ölçmək üçün avadanlıq ilə təchiz edilməli;
- Perforasiya işləri aparılaraq mənimsəmə intervalından 50 m yuxarıda paker yerləşdirilərək kompressordan istifadə etməklə drenaj yaradaraq lay-sınaq avadanlığı ilə mənimsəmə əməliyyatı yerinə yetirilməli;
- Tədqiq olunan intervalı partlayış pakerindən istifadə etməklə və yaxud kəmər daxilində sement körpüsü qoyaraq ayırmaqla növbəti mənimsəmə intervalına keçməli, kəsiliş boyu yüksək intensivlik aşkar edilən bütün intervallarda sınaq-yoxlama əməliyyatı aparılmalıdır.

MQ-dan altda yatan Oligosen-Miosen-Pontun kəsilişində karbohidrogenlə doyumlu obyektləri aşkar etməklə, Abşeronun köhnə yataqlarında işlənmə müddətini artırmaqla yanaşı, bu yataqlarda yaradılmış infrastrukturdan istifadə, həmin obyektlərə quyuların qazılmasına sərf ediləcək vəsaitlə bağlı əldə olunacaq iqtisadi səmərə və bu yataqların işlənməsi ilə məşğul olan müəssisələrdə işçilərin iş yerlərinin saxlanılması ilə əlaqədar sosial yönəmli məsələlər də öz dəyərli həllini tapacaqdır.

Beləliklə, bu məqalədə qaldırılan məsələlərə elm və istehsalatda calışan alim və mütəxəssislərin diqqət yetirərək, öz münasibətini bildirmələri olduqca önəmlidir və onların söylədikləri hər bir fikir və mülahizəyə görə əvvəlcədən dərin təşəkkürümüzü bildiririk.

## ƏDƏBİYYAT


1. Рагиб Р.Рахманов Перспективы нефтегазоносности мелководной зоны Азербайджанской части Каспийского моря. Баку: Ганун, 2010, 128 с.
2. Нариманов А.А. Концепция формирования месторождений нефти и газа Южно-Каспийского бассейна. «Геология Азербайджана», 2006, №11, с. 3-18.
3. Гаджиев Ч.А. Комплекс мероприятий по использованию геофизической и геолого-промысловой информации для изучения текущего состояния разработки нефтегазовых залежей (на примере старейшего месторождения нефти Азербайджана). М.: журнал «Каротажник», №1, 2012, с. 21-27.

# О ИЗУЧЕНИИ НЕФТЕГАЗОНОСНОСТИ ОТЛОЖЕНИЙ ОЛИГОЦЕН-МИОЦЕН-ПОНТА НА РАЗРАБАТЫВАЕМЫХ МЕСТОРОЖДЕНИЯХ АБШЕРОНА

**Ч.А.ГАДЖИЕВ, Ф.С.ИБРАГИМОВ**

## РЕЗЮМЕ

Статья посвящена интерпретации геолого-геофизических материалов исследования, с целью выявления насыщенных углеводородами пропластков с коллекторскими свойствами в разрезе отложений Олигоцен-Миоцен-Понта на разрабатываемых месторождениях Абшеронского нефтегазоносного региона. Изучены причины отрицательного влияния на результаты геофизических исследований скважин частично вскрывших разрез этих отложений по месторождениям расположенных в море и на суше. По материалам бурения скважин, анализируя условия создавшиеся в процессе бурения, оценен качественный уровень проведенных исследований. Обоснована необходимость продолжения изучения нефтегазонасыщенности этих отложений.С этой целью на месторождение Нефтяные камни в скважине №1М и в Пираллахи в скважинах №1200 и 1201 предложена программа исследования в них геофизическими методами.

**Ключевые слова:** залежь, коллектор, бурение, поглощение, раствор, разрез, отложения, углеводород, исследования

# ABOUT THE STUDY OF OIL-GAS PRESENCE OF OLIGOCENE-MIOCENE-PONT DEPOSITS ON DEVELOPED FIELDS OF ABSHERON

**Ch.A.HAJIYEV, F.S.IMBRAHIMOV**

## SUMMARY

This article is devoted to interpretation of geological-geophysical survey data for exposure of reservoir layers saturated with hydrocarbons in deposits of Oligocene-Miocene-Pont section which is lying under the productive series at developing fields of Absheron oil – gas bearing region. Factors of negative effect on the results of geophysical studies of the wells, that partly penetrated the section of these deposits located on the fields offshore and on land have been investigated. Basing on drilling materials, and analyzing the conditions occurred in the drilling process, the quality level of the conducted study has been estimated. The relevance to continue studying of hydrocarbon saturation of these deposits has been justified.For this purpose, in well №1 M on “Oil stones” and in wells №1200 and 1201 on Pirallakhi the program of investigations by geophysical methods has been suggested.

**Key words:** occurrence, reservoir, drilling, absorption, solution, section, deposits, hydrocarbon, survey.

*Redaksiyaya daxil oldu: 03.06.2013-cü il.*
*Çapa imzalandı: 02.07.2013-cü il.*